## Dövlət Statistika Komitəsi tərəfindən həyata keçirilən elektron xidmətlər

**Hörmətli istifadəçilər**!

Bildiririk ki, "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli Fərmanının 2-1-ci bəndinin, "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın və "Elektron xidmət növlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli qərarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 17 oktyabr tarixli 235 nömrəli qərarının icrasını təmin etmək məqsədilə Dövlət Statistika Komitəsi bəzi elektron xidmətlər göstərir.

Göstərilən xidmətlər Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsinin "E-xidmətlər" bölməsində yerləşdirilib və onlar aşağıda göstərilən 5 adda xidmət növləridir:

**- Rəsmi statistik hesabatların təqdim edilməsi;**

**-Statistik məlumatların buraxılış təqviminin və mətbu məlumatların yayım təqviminin təqdim edilməsi;**

**-Statistik məlumatların (göstəricilərin ) verilməsi;**

**-Statistik nəşrlərin (kitabların) onlayn satışı;**

**-Statistik məlumatların verilməsi qaydalarının pozulmasına görə inzibati cərimələrin internet vasitəsilə ödənilməsi;**

İstifadəçilər Dövlətstatkomun rəsmi internet səhifəsinin "E-xidmətlər" bölməsinə daxil olaraq bu xidmət növlərindən istifadə edə bilərlər. Qeyd olunan elektron xidmətlər nəticəsində statistik vahid (hüquqi və ya fiziki şəxs) bütün rəsmi statistika hesabatlarını statistika orqanlarına gəlmədən elektron formada təqdim edir, statistik məlumat istifadəçisi iqtisadiyyatın və sosial həyatın bütün sahələrinə dair hazırlanmış mətbu məlumatları, habelə onu maraqlandıran digər statistika məlumatlarını elektron formada əldə edir, statistik məcmuəni (kitabı) Komitəyə gəlmədən, dəyərini onlayn şəkildə ödəməklə alır, statistik məlumatların verilməsi qaydalarını pozduğuna görə barəsində inzibati protokol tərtib olunmuş hüquqi və ya şəxs cəriməni banka getmədən, internet vasitəsilə onlayn rejimində ödəmək imkanlarını qazanırlar.

Bunlarla yanaşı istifadəçilər Dövlətstatkomun rəsmi internet səhifəsinin "E-xidmətlər" bölməsində yerləşdirilən və aşağıda göstərilən elektron xidmətlər üçün inzibati reqlamentlərin (sənədlərin) maddələri ilə tanış ola bilərlər:

**-Rəsmi statistik hesabatlaın təqdim edilməsi üzrə inzibati reqlament;**

**-Dövlət (region) müşahidələrinin aparılması üçün lazım olan məlumatların elektron sənəd formasında dövlət statistika orqanlarına təqdim edilməsi haqqında ərizə forması;**

**-Dövlət (region) müşahidəsinin aparılması üçün lazım olan məlumatların elektron sənəd formasında dövlət statistika orqanlarına təqdim edilməsi haqqında müqavilə forması;**

**-Statistik məlumatların buraxılış təqviminin və mətbu məlumatların yayım təqviminin təqdim edilməsi üzrə inzibati reqlament;**

**-Statistik məlumatların (göstəricilərin) verilməsi üzrə inzibati reqlament;**

**-Statistik nəşrlərin (kitabların) onlayn satışı ûzrə inzibati reqlament;**

**-Statistik məlumatların verilməsi qaydalarının pozulmasına görə inzibati cərimələrin internet vasitəsilə ödənilməsi üzrə inzibati reqlament.**

**Dövlət Statistika Komitəsinin İnformasiya və ictimaiyyətlə əlaqələr şöbəsi**